# Qacar dövlətinin süqutu və Palanilər



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

## II Yazı

## Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qacar dövləti ilə əlaqələr

***Hələ Rusiya imperiyasının dağılmasından sonrakı ilk aylarda şimallılar Təbrizdə öz komitələrini yaratmış,bu komitə onların mənafeyinin müdafiəsi yolunda bəzi işlər görə bilmişdi.Türkiyə qoşunlarının general Andranikin Denstervil qüvvələri ilə birləşməsinə mane olmaq məqsədi ilə təcili Təbrizi tutması ilə həmin komitə Cənub Qərbi Qafqaz Cumhuriyyətinin konsulluğuna çevrildi.Konsulluğa əvvəl Teymur bəy Məlik-Aslanov,sonra Yusif Ziya, daha sonar isə Rauf bəy başçılıq edirdi.Türkiyə qoşunlarının Təbrizi tərk etməsi ilə Qacar hökuməti bu konsulluğu bağladı.***

***Adil xan Ziyadxanov Gəncə xanı Cavad xan Ziyadoğlu-Qacarın nəticəsi idi.Anası Azər Humayun xanım naibüssəltənə (vəliəhd) Abbas Mirzə Qacarın nəvəsi,şahzadə Bəhmən Mirzənin qızıdır.***

***Adil xan Ziyadxanov Qacar boyuna mənsub olduğu üçün 1919-cu ilin martında Qacar dövlətinə göndərilən nümayəndə heyətinin rəhbəri olmuşdur.Bu səfər zamanı müxtəlif dostluq və ticarət müqavilələri imzalanmışdır.O, bu səfər zamanı Azərbaycanın Qacar dövləti tərəfindən de –yure tanınmasına nail ola bilmişdir.***

Azərbaycan Xalq Cümhuriyyətinin Tehranda səfirliyi,Təbriz və Rəştdə konsulluğu,Məşhəddə vitse-konsulluğu,Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı.

Qacar dövləti şahı Əhməd şah Qacar 1919-cu ilin avqustunda Bakı şəhərinə rəsmi səfərə gəlmişdi.Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini keçərək Avropa səyahətinə getmişdi.

Azərbaycan hökumətinin 1 avqust 1919-cu il tarixli qərarına əsasən Azərbaycan dövlətinin Tehranda diplomatik nümayəndəliyi təsis edilmiş və xarici işlər nazirinin müavini Adil xan Ziyadxanov Azərbaycan-Xalq Cümhuriyyətinin Qacar dövlətində diplomatik nümayəndəsi (səfir) vəzifəsinə təyin edildi.Oktyabr ayında bu vəzifəyə təyin edilsə də, Qacar dövləti torpaqlarına 1920-ci ilin 4 yanvarında gedib çıxa bildi.

Azərbaycan Xalq Cümhuriyyətinin Qacar dövlətində səfirliyi 28 aprel 1920-ci ilə qədər fəaliyyət göstərmişdir.

Azərbaycan nümayəndə heyəti Qacar dövlətinə birdən-birə,gözüyumulu gəlməmişdi.Qafqaz konfedrasiyası ideyasının faktiki olaraq iflası,müttəfiq qoşunlarının Azərbaycandan çəkilməsi,milli münasibətlərin kəskin olduğu Zaqafqaziya üzərində İtaliyanın müvəqqəti mandat hüququndan imtina etməsi,Denikin təhlükəsinin Azərbaycanı təhdidində davam etməsi,yeni yaranmış dövlətlərin suverenliyinin təsdiqində qeyri-müəyyənlik 1919-cu ilin payızında Azərbaycan nümayəndə heyətini ölkənin xaricindən təhlükəsizliyinə nail olmaq məsələsində Qacar dövləti amilindən istifadəyə sövq edirdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov Nazirlər Şurasının sədrinə yazırdı:" Biz,əlbəttə,Qacar dövlətinin müasir vəziyyətinin,o cümlədən onun İngiltərə ilə bağladığı və bizim incəliklərinə qədər təhlil etdiyimiz 9 avqust tarixli müqaviləni (bu müqavilə 1921-ci ilin əvvəllərində ləğv edildi) nəzərə alırıq".Bununla belə, Azərbaycan nümayəndə heyəti,şübhəsiz,onu da nəzərə alırdı ki,Qacar dövləti ilə konfederasiya tipli birliyin yaranması və müqavilə layihəsində irəli sürülmüş başqa müddəaların da həyata keçirilməsi suverenliyini saxlayacaq Şimalın onillərlə Cənubla birləşmək həsrətinə son qoyacaq,başının üstündə oynayan Damokl qılıncından canını qurtaracaqdı.Müqavilə layihəsi Qacar dövləti tərəfindən təsdiq edilsə idi,dünya xəritəsində yeni birləşmiş milli türk dövləti yaranacaqdı.Türk dili Qacar dövlətində saray və ordu dilindən çıxıb dövlətin tam rəsmi dili olacaqdı.Böyük Azərbaycan ideyası da gerçəkləşmiş olacaqdı.

***1920-ci il aprelin 27 –də Azərbaycan Xalq Cümhuriyyətinin işğalı ilə Quzey Azərbaycan ağır duruma düşdü.Ümumiyyətlə,SSRİ –nin milli siyasətinin "qoruyucularından" biri müxtəlif etmik qrupların paytaxtda öz həmvətənləri ilə ilə geniş təqdim olunmasıdır.Ruslarla "əlaqəyə girmək üçün,ieraxiyaya yüksəlmək və paytaxt şəhərlərinə yaxınlaşmaq lazımdır.Bu zaman onlar,adətən tatar,Azərbaycan,özbək "sahibkarlar" gizlənirlər,necə ki hind xidmətində "siyasi zabitlər" məxaracilərin ərazilərində gizlənir.O vaxt ki bu ötəri kadrların gözləri qarşısında öz sadiq nökərçiliyi,feodal hissləri olan titullu rəhbərlər hakimiyyətdən uzaqlaşdırılır sosial nəzarət xeyli çətinləşir.***

## Rza Palaninin (Pəhləvinin) farslaşdırma siyasəti

Rza Palaninin hakimiyyəti dövründə tacik əsillilərin sürətlə hökumət qurumlarına yerləşdirildi və məktəblərdə, mədrəsələrdə türk dilində danışmaq qadağan edildi.Müxtəlif tacik əsilli xalqlar və Azərbaycan türkləri içərisindən öz millətindən imtina edənlərdən pers milləti yaradıldı.Fars milləti yaratmaq və Paniraniz ideyasını ilk dəfə Rza şah Palaninin səltənəti dövründə Mahmud Əfşar Yəzdi irəli sürmüşdü.Bu ideyanın daşıyıcısı və baş mamaçalarından biri Əhməd Kəsrəvi idi.Vətən xainlərindən ibarət olan yaltaq , bambılı , düşük zümrə özlərinə saxta millət yaratmağa girişdilər.Əhməd Kəsrəvi "Azəri,yaxud Azərbaycanın qədim dili" və başqa əsərlərində Azərbaycan türklərinin farslaşdırılması kimi mürtəce ideya irəli sürmüşdü.

Əhməd Kəsrəvi Palani rejiminin əsas ideoloqlarından biri "Azəri ya Zəban Bastane Azərbaycan" əsərində azərbaycanlıların türk yox,azəri adlı ayrıca bir millət olduqları fikrini irəli sürmüşdü.Kəsrəviyə görə Azərbaycan türkcəsi türk dili ailəsinə mənsub deyildir.Azəri dili İran mənşəli bir dildir.Azərilər Səlcuqların İrana gəlməsi ilə türkləşməyə başladılar.

Əhməd Kəsrəvi həm də "təmiz dil" siyasəti fikrini,fars dilini başda ərəbcə olmaq üzrə əcnəbi dildə olan sözlərdən təmizləmə,həm də "təmiz din" (dinin xurafatdan ayrılması) fikirlərini irəli sürmüşdür.Kəsrəvi İranın ən böyük probleminin dil,din və etnik müxtəliflik olduğunu təsbit etmişdir.

Paniranizmin bir qolu kimi kəsrəviçilik (banisi C.Ə.Kəsrəvi-Təbrizinin adı ilə) yarandı.Onun müddəalarının biri vahid Azərbaycan ideyası və məfkurəsinə qarşı yönəlmişdir.Belə ki,paniranist-kəsrəviçilərin fikrincə,guya Arazın şimal və cənubunda yaşayan əhali ayrı-ayrı etnik birliyə mənsubdurlar.Həta ara-sıra Arazın şimalındakı torpaqların "Azərbaycan" adlandırılmasının "səfv olması"haqqındakı tezislər İranda bu gün də eşidilməkdədir.

## Firudin Mirzə Qacar

Firudin Mirzə Qacar 22 yanvar 1922-ci ildə Tehranda Gülüstan sarayında anadan olmuşdur.Atası Əhməd şah Qacar 1930-cu ildə vəfat etdikdən sonra Qacar Şah Ailəsinin başçısı olmuşdur.24 sentyabr 1975-ci ildə isveçrənin Cenevrə şəhərində motosikl qəzası nəticəsində vəfat etmişdir.

Firudin Mirzə Qacar milliyətcə bolqar olan Maqdalina İvaanova-Gevranova ilə ailə həyatı qurmuşdur.Bu səbəbdən izdivacdan dünyaya gələn heç bir uşaq şah ailəsinə rəhbərlik etmir.

***Şahzadə Teymur Mirzə Qacar***
***Şahzadə Eila Qacar-Hamuda***
***Şahzadə Şeyla Qacar***




***Həmid Mirzə Qacar***

Həmid Mirzə Qacar 23 aprel 1918-ci ildə Təbrizdə anadan olmuşdur.O,şahzadə Cənubi Azərbaycan valisi Məhəmməd Həsən Mirzənin ikinci xanımı Möhtərəm Razzaqidən olan oğludur.Kiçik yaşlarını Tehranda Gülüstan Sarayında keçirən Həmid Mirzə 4 yaşına çatdıqda atası onu təhsil almaq üçün İngiltərəyə göndərir.Lakin o,İstanbulda sürgündə yaşayan babası Məhəmmədəli şahın yanında qalır.Məşrutə inqilabından sonra 1909-cu ildə Məhəmmədəli şah ölkəni tərk edərək taxtı öz oğluna ötürmüşdü.Nəvəsinin İngiltərəyə getməsi üçün hələ gənc olduğunu düşünən baba onu yanından buraxmır.5 aprel 1925-ci ildə Məhəmmədəli şah Qacar vəfat edir, və 6 yaşlı şahzadəni İtaliyaya,sonra isə Parisə aparırlar.Rza xanın çevrilişindən sonra Tehrandan qaçan atası ilə birlikdə Londona köçən Həmid Mirzə Qacar burada təhsil almağa başlayır.1934-cü ildə o,Kent qraflığında yerləşən Temza Dənizçilik məktəbinə daxil olan şahzadə 1936-cı ildə məktəbdən məzun olur və Krallığın Poçt şirkətində işə başlayır.Burada 3 il çalışdıqdan sonra o, Mobil Neft şirkətinə qoşulmaq üçün işindən istefa verir.

İkinci Dünya Müharibəsi zamanı Həmid Mirzə Britaniya Kral Hərbi Dəniz Qüvvələrində xidmət etmək üçün adını dəyişib Devid Drammond qoyur.Müharibədən sonra Həmid Mirzənin hərbi karyerası baş tutmur və o,yenidən neft şirkətinə dönür.Müharibə zamanı İngilis hökuməti ilə Həmid Mirzə Qacar və atası Məhəmməd Həsən Mirzə Qacar arasında Qacar sülaləsinin mümkün bərpası ilə bağlı müzakirələr olur.Həmid Mirzə və atası taxta namizəd idi.Lakin Həmid Mirzə elə də ciddi namizəd sayılmırdı.Buna səbəb aitı yaşından bəri İngiltərədə yaşamış olması,eləcə də fars dilini bilməməsi idi.Qacar dövlətində saray və ordu dili türkcə idi. Palanilər onu fars dili ilə əvəz etmişdilər.

1935-ci idə Rza şah Palani tərəfindən Qacar dövləti rəsmən İran adlandırıldı.Müharibədən sonrakı 1957-ci ildə Həmid Mirzə İrana işləməyə gedir.4 yaşında vətənini tərk edən şahzadə fars dilində danışa bilmirdi.Buna baxmayaraq,Məhəmməd Rza şah onda taxt-tacı üçün bir təhlükə gördüyü üçün iki dəfə həbs etdirmişdir.1971-ci ildə iranı tərk edərək Londona qayıdan şahzadə 1977-ci ildə "sürgündəki şahənşah" elan edilir.1988-ci ildə vəfat edən şahənşahın yerinə oğlu II Məhəmməd Həsən Mirzə çahənşah elan edilir.1988-ci ildən günümüzə qədər keçir.

*1935-ci idə Rza şah Palani tərəfindən Qacar dövləti rəsmən İran adlandırıldı.Müharibədən sonrakı 1957-ci ildə Həmid Mirzə İrana işləməyə gedir.4 yaşında vətənini tərk edən şahzadə fars dilində danışa bilmirdi.Buna baxmayaraq,Məhəmməd Rza şah onda taxt-tacı üçün bir təhlükə gördüyü üçün iki dəfə həbs etdirmişdir.1971-ci ildə iranı tərk edərək Londona qayıdan şahzadə 1977-ci ildə "sürgündəki şahənşah" elan edilir.1988-ci ildə vəfat edən şahənşahın yerinə oğlu II Məhəmməd Həsən Mirzə çahənşah elan edilir.1988-ci ildən günümüzə qədər keçir...*

## Rza Palaninin (Pəhləvinin) hökmranlıq illəri

***1925-ci ildə Qacar dövlətini devirən baş vermiş hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmiş Palanilər sülaləsi İngilislərin əli ilə hakimiyyətə gəldiyindən Avropalaşma kursunu irəli sürsədə uğur qazana bilmədi.Almaniyada faşistlərin hakimiyyətə gəlməsinə qədər İran elitasında İtaliyanın faşist lideri Benito Mussoliniyə qarşı güclü rəğbət vardı.Bu mənada Britaniya maliyyə dairələrinin İran iqtisadiyyatında açar rolunu oynamasına baxmayaraq,geopolitik üstünlük tədricən Almaniyanın tərəfinə keçdi.Üçüncü reyx İranın infrastrukturunda,iqtisadiyyatının inkişafında,hətta hərbi qüvvələrin islahatlarında fəal iştiraka başlayırdı.Əgər almanlar Şimali Afrikadan Fələstinə və ya Suriyaya yol aça,yaxud Bakı-Dərbənd-Həştərxan xəttinə çıxa bilsəydilər,İranın Hitler mövqeyində döyüşməsi həll edilmiş məsələ sayılırdı.Maqaqlıdır,almanların özləri də alternativ plan hazırlamışdılar.Belə ki,əgər Rza Palani onlara hər hansı müqavimət göstərsəydi,Hitler Cənubi və Şimali Azərbaycanı birləşdirib İranın bütün ərazisində vahid Azərbaycan adlı yeni dövləti qurmağa hazır idi.1941-ci il avqustun 16-da Moskva İran hökumətinə nota göndərərək,rəsmi Tehrandan alman vətəndaşlarının ərazisindən çıxarmasını istədi.Bununla yanaşı,İran ərazisində ingilis-sovet birləşmələrinin yerləşdirilmək tələb olundu.Tehran bundan imtina etdi.Avqustun 19-da İran hökuməti hərbi qulluqçuların məzuniyyətlərini ləğv etdi.Əlavə olaraq ehtiyatda olan 30 min hərbi qulluqçu səfərbərliyə alındı.Bununla da ordunun şəxsi heyətinin sayı 200 min nəfərə çatdırıldı.1941-ci ilin 25 avqustunda Britaniya Hərbi Dəniz Qüvvələrinin kanoner qayığı Abadan limanına hücum etdi.İranın "Pələng" adlı sahil mühafizə gəmisi dərhal batırıldı.Hücum zamanı habelə digər kiçik patrul gəmiləri zədələndi və ya təslim oldu.Əməliyyat 64 Britaniya əsgərinin öldürülməsi və yaralanması ilə nəticələndi.Sovet ordusunun isə təxminən 50 hərbçisi həlak olmuş,minə qədər əsgəri yaralanmışdı.Uğursuz müdafiə döyüşləri İran ordusunun 1000-ə yaxın hərbiçisinin öldürülməsi ilə nəticələndi.Bununla da faşist Almaniyasının Cənubi və Şimali Azərbaycanı birləşdirmək planları boşa çıxdı.***

**(ardı var)**